# Zəngilan əməliyyatı: Hərbi taktika ilə texnoloji üstünlüyün kəsişməsi

**2020-ci il Azərbaycan xalqının tarixi yaddaşında və ölkəmizin hərb salnaməsində xüsusi əhəmiyyət daşıyan bir mərhələ kimi yer almışdır. Həmin il, illər keçsə belə, milli dövlətçilik ənənələrimizdə Zəfər ili kimi xatırlanacaqdır. Məhz həmin ildə Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin strateji rəhbərliyi altında Azərbaycan Ordusu sentyabrın 27-dən başlanan və 44 gün davam edən Vətən müharibəsini hərbi-siyasi baxımdan mühüm nəticələrlə tamamlamışdır. Operativ və taktiki planlamanın uğurlu icrası nəticəsində əldə olunan bu Qələbə milli tariximizin ən parlaq nailiyyətlərindən biri kimi qiymətləndirilir.**

Qazanılmış hərbi üstünlük xalqımızın bu gün də böyük fəxarət hissi ilə yad etdiyi tarixi hadisədir. Əsas məsələ ondan ibarətdir ki, bu nailiyyətlər bütövlükdə Ali Baş Komandanın qətiyyətli iradəsi, Azərbaycan Ordusunun peşəkar əsgər və zabit heyətinin fədakarlığı, eləcə də Vətənin müdafiəsi uğrunda canlarını fəda edən şəhidlərimizin və qazi olmuş döyüşçülərimizin şücaəti hesabına mümkün olmuşdur. Azərbaycan cəmiyyəti bu xidmətlərə görə onlara daima minnətdar olacaqdır.

Ordumuzun 44 gün ərzində həyata keçirdiyi ardıcıl əməliyyatlar nəticəsində Azərbaycan Respublikası beynəlxalq səviyyədə tanınmış ərazilərində suverenliyini bərpa etdi. Bu əməliyyatların ən vaciblərindən biri Zəngilan uğrunda döyüşlər idi. Zəngilan əməliyyatı cənub istiqamətində strateji dönüş yaratmaqla müharibənin ümumi gedişinə ciddi təsir göstərdi. Müasir hərb elminin tələblərinə əsaslanan bu əməliyyat həm mobil qoşunların sinxronlaşdırılmış fəaliyyəti, həm də yüksək texnologiyaların döyüşlərdə tətbiqi baxımından diqqət çəkir.

Zəngilan rayonunun təbii-coğrafi xüsusiyyətləri onun həm ekoloji, həm də strateji baxımdan əhəmiyyətini müəyyənləşdirən əsas amillərdəndir. Rayon Azərbaycan Respublikasının cənub-qərb hissəsində, Ermənistan və İranla sərhəd zonasında yerləşən strateji əhəmiyyətli məntəqələrdən biridir. Şəhərin Bakı-Culfa-Naxçıvan istiqamətində uzanan magistral dəmir və avtomobil yolları üzərində yerləşməsi onun regiondaxili və beynəlxalq nəqliyyat-kommunikasiya sistemində mühüm mövqe tutmasına səbəb olmuşdur.

Zəngilan rayonu zəngin təbii ehtiyatları, münbit torpaqları və geniş meşə massivləri ilə seçilir. Oxçuçay və Bəsitçay kimi dağ çayları ərazinin hidroqrafik quruluşunun əsasını təşkil edir və regionun ekosisteminin davamlılığında mühüm rol oynayır. Meşə sahələrinin genişliyi burada yaşayan flora və fauna müxtəlifliyinin qorunmasına şərait yaradır.

Tarixi mənbələrə əsasən, XIX əsrin əvvəllərində Qafqazın Rusiya imperiyası tərəfindən işğalından sonra aparılan inzibati-ərazi bölgüləri nəticəsində Zəngəzur qəzası Gəncə quberniyasına daxil edilmiş və Sisyan, Qafan, Mehri, Zəngilan, Qubadlı və Laçın əraziləri bu inzibati vahidin tərkibində göstərilmişdir. Zəngilanın ərazisi şərqdən Həkəri çayından başlayaraq Mehri dağ silsiləsinə qədər uzanan geniş bir coğrafiyanı əhatə edirdi. Zəngəzur dağ silsiləsinin tərkibində yerləşməsi, əhalisinin etnik tərkibi və bölgənin inzibati-siyasi tarixində tutduğu yer bu ərazinin Azərbaycanın ayrılmaz hissəsi olduğunu təsdiq edir.



1920-ci il aprelin 28-də bolşeviklərin işğalından sonra bölgədə siyasi vəziyyət dəyişmiş və bolşevik Rusiyasının dəstəyi ilə ermənilərin Zəngəzur üzərində nəzarəti təmin olunmuş, beləliklə, bolşevik təsiri ilə bu ərazi Azərbaycanın əlindən alınaraq Ermənistana birləşdirilmişdir. Bunun nəticəsində Zəngəzurun yuxarı hissəsi Ermənistanın, Laçın, Qubadlı və Zəngilan isə Azərbaycanın tərkibində qalmışdır. 1925-ci il sənədlərində Zəngilanın Cəbrayıl qəzasının tərkibində qeyd olunması bu ərazi bölmələrinin daha sonra yenidən formalaşdırıldığını göstərir. Coğrafi mövqeyinə görə rayon şimaldan Qubadlı, şərqdən Cəbrayıl, cənubda Araz çayı boyunca İran, qərbdə isə Ermənistanın Mehri və Qafan rayonları ilə həmsərhəddir. 1930-cu il avqustun 8-də Zəngilan müstəqil rayon olaraq formalaşmış və 1967-ci ildə şəhər statusu almışdır. Rayonun sahəsi 707 kvadrat kilometr, əhalisi 35351 nəfərdir. Həmin dövrdə rayon bir şəhər, bir şəhər tipli qəsəbə, beş qəsəbə, 81 kənddən ibarət olmuşdur.

1993-cü ilin oktyabr ayında Ermənistan silahlı qüvvələrinin Zəngilan rayonunu işğal etməsi bölgədə ciddi humanitar və mədəni fəsadlara səbəb olmuşdur. İşğal nəticəsində rayonun dinc əhalisi kütləvi şəkildə öz yaşayış məntəqələrini tərk etməyə məcbur olmuş, milli və dini abidələr dağıdılmış, təbii sərvətlər isə sistemli şəkildə talan edilmişdir. Bu hadisələr Qarabağ müharibəsinin digər bölgələrində müşahidə olunan dağıntıların Zəngilanda da eyni intensivliklə təkrarlanmasına gətirib çıxarmışdır.

İşğal dövründə Ermənistan silahlı qüvvələri Zəngilan ərazisində geniş mühəndis-istehkam işləri görmüş, yüksəkliklərdə dayaq məntəqələri yaratmışdı. Relyef üstünlüyü düşmənin müdafiəsini möhkəmləndirirdi. Buna baxmayaraq, uzun illər ərzində müdafiə infrastrukturu köhnəlmiş, texnoloji baxımdan geri qalmış və modern dövrün müharibə tələblərinə uyğunlaşmamışdı.

Zəngilan rayonunun relyefi mürəkkəb dağ-meşə sistemindən ibarət olub hərbi əməliyyatlar üçün həm çətinlik, həm də operativ üstünlüklər yaradırdı. Əraziyə hakim yüksəkliklərin mövcudluğu müdafiə üçün əlverişli olsa da, hücum edən tərəf üçün koordinasiyalı əməliyyat tələb edirdi.

Ərazinin bir tərəfdən İranla sərhəd xətti boyunca uzanması əməliyyatın geosiyasi ölçüsünü daha da artırırdı. Bu sərhəd xətti Azərbaycan Ordusunun cinah təhlükəsizliyini təmin etməsi baxımından həyati əhəmiyyət kəsb edirdi, çünki sərhəd boyunca nəzarətin bərpası qoşunların manevr imkanlarını genişləndirirdi.

Oktyabrın 18-də Azərbaycan Ordusu Zəngilan rayonunun azad edilməsi məqsədilə genişmiqyaslı əməliyyata başladı. Döyüş fəaliyyətləri əsasən Dövlət Sərhəd Xidmətinin komandanlığı altında təşkil olunmuş və cənub istiqamətində uğurlu irəliləyiş təmin edilmişdir.

*Vətən müharibəsi zamanı Zəngilanın azad olunması məqsədilə yüksək dəqiqliklə planlaşdırılmış “Üç nöqtə” əməliyyatı həyata keçirilmişdir. Əməliyyat planlaşdırılarkən aşağıdakı əsas məqsədlər müəyyənləşdirilmişdi:*

**1. Cənub cinah boyunca tam nəzarətin təmin edilməsi;**

**2. Düşmənin müdafiə qruplarının bir-birindən təcrid olunması;**

**3. Qubadlı-Laçın xəttinin nəzarətdən çıxarılması üçün operativ şəraitin yaradılması;**

**4. Araz boyunca Azərbaycan sərhəd keçidlərinin bərpası.**

Bu məqsədlərin hər biri əməliyyatın gedişinə birbaşa təsir edən elementlər idi.

Zəngilan döyüşlərinin iştirakçılarının açıqlamalarına əsasən, əməliyyatdan əvvəl genişmiqyaslı kəşfiyyat işi aparılmış, düşmənin mövqeləri pilotsuz uçuş aparatları ilə detallı şəkildə öyrənilmiş, düşmən qüvvələrinin yerləşmə mövqeləri, şəxsi heyətin sayı, döyüş texnikasının cəmləşdiyi sahələr, eləcə də atəş nöqtələri müəyyən edilərək toplanmış məlumat komanda məntəqəsində operativ təhlildən keçirilmiş və qərarvermə prosesində əsas göstərici kimi istifadə olunmuşdur. Bu mərhələdə əsas prioritet:

- **hava üstünlüyünün təmin edilməsi;**
- **kəşfiyyat məlumatlarının real vaxtda komanda mərkəzlərinə ötürülməsi;**
- **düşmənin mühəndis sədlərinin xəritələndirilməsi idi.**

Bütün bu tədbirlər quru qoşunlarının irəliləyişi üçün zəruri şəraiti yaratmışdı.

Ertəsi gün gecə saatlarında xüsusi hazırlanmış qruplar tərəfindən sızma əməliyyatı həyata keçirilmiş, düşmən mövqelərinə ani və dəqiq zərbələr endirilmişdir. Oktyabrın 20-dən etibarən Azərbaycan Ordusu Zəngilanın bir sıra kəndlərini nəzarətə götürməyə başladı. Bu kəndlərin azad olunması əməliyyatın operativ dərinliyini genişləndirir, hər bir yaşayış məntəqəsinin azad edilməsi düşmənin logistikasına zərbə vurur, müdafiə xəttini parçalayır və qoşunların manevr imkanlarını artırırdı. Bu zərbələr nəticəsində qarşı tərəf ciddi itkilər vermiş və mövqelərini tərk edərək geri çəkilməyə məcbur olmuşdur.

Zəngilan döyüşü müasir müharibələrdə PUA-ların oynadığı rolu nümayiş etdirən ən xarakterik nümunələrdən biridir. PUA-ların uçuş trayektoriyaları relyefdən asılı olmayaraq, düşmənin dərinliyində yerləşən hədəflərə dəqiq zərbə endirməyə imkan verirdi. Bu cihazlar artilleriya batareyalarını, tank kolonlarını, komanda məntəqələrini və mühəndis-istehkam strukturlarını məhv etməklə düşmənin mövqelərini zəiflədir və quru qoşunlarının qarşısında ciddi maneələrin yaranmasının qarşısını alırdı.

Əməliyyatın uğurunda artilleriya bölmələrinin rolu da yüksək qiymətləndirilir. Düşmənin cəmləşmə nöqtələrinə, komanda idarəetmə məntəqələrinə və təminat sahələrinə endirilən artilleriya atəşləri bölmələrimizin təhlükəsiz və sürətli irəliləməsini təmin etmişdir. Əməliyyatın sinxronlaşdırılmış şəkildə aparılması nəticəsində Zəngilan istiqamətində üstünlük tam şəkildə Azərbaycan Ordusunun xeyrinə dəyişdi.

Oktyabrın 22-də Azərbaycan Ordusu Zəngilan şəhərinə daxil oldu. Şəhərin azad edilməsi əməliyyatın kulminasiya nöqtəsi sayılır. Bu hadisə müharibənin sonrakı mərhələlərində Qubadlı və Laçın istiqamətlərində sürətli irəliləyiş üçün zəruri strateji baza yaratdı.

Şəhərin azad olunması ilə Azərbaycan Ordusu qarşısında Arazboyu ərazilərin tam təmizlənməsi kimi növbəti vəzifə müəyyənləşdirilmiş və bu istiqamətdə aparılan əməliyyatlar nəticəsində Ağbənd ərazisi də nəzarətə götürülmüşdür. Bununla da 132 kilometrlik Azərbaycan-İran sərhəd xətti faktiki olaraq bərpa edilmişdir.

*(ardı var)*

***Gülşən HÜSEYNOVA***
***Azərbaycan Hərb Tarixi Muzeyinin əməkdaşı***